**N.Ç.HEYDƏROVA**
*e-mail: heydarovanigar.87@gmail.com*
*müəllim*
**:https://orcid.org/0009-0009-7350-3569**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., K.Rəhimov küç., 13)

**10.62021/0026-0028.2024.4.258**

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-EMOSİONAL İNKİŞAFININ MAHİYYƏTİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİNİN UĞURLA HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

***Xülasə.*** *Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı uşaqların sosial-emosional inkişaf haqqında bilik, bacarıq və vərdişlərə yiyələnməsini, uşaqlarda ünsiyyət, davranış, nəzakətli olmaq kimi mühüm dəyərləri tərbiyə etməyi, onlara sosial-emosional inkişaf sahəsi üzrə nəzərdə tutulan bacarıqların formalaşdırılmasını aşılamağı, sosial-emosional inkişafda yaranan mənfi hallar və onların aradan qaldırılması yollarını başa salmağı əsas götürür.*

***Açar sözlər:*** *məktəbəqədər yaşlı uşaqlar, sosial-emosional, empati, rollu oyunlar, duyğular*

Həyatının ilk illərindən uşağın sosial və emosional cəhətdən inkişafının onun şəxsiyyətinin inkişafına böyük təsiri vardır [3]. **Sosial inkişaf** uşağın yaxınları, başqa uşaq və böyüklərlə ünsiyyət yaratmaq, əməkdaşlıq etmək, birgə fəaliyyət göstərmək bacarığı, sosial normaları mənimsəməsidir. **Emosional inkişaf dedikdə** isə uşağın başqalarının hisslərini başa düşməsi, öz hisslərini düzgün ifadə etməsi və hisslərini tənzimləməsi başa düşülür [1, s. 34-56].

Erkən uşaqlıqda olduğu kimi, 3-5 yaşlarında da hisslər uşağın həyatının bütün cəhətlərinə hökmranlıq edir, onlara özünəməxsus çalar və ifadəlilik verir. Uşaq bu yaşda onu əhatə edən aləmin onda yaratdığı təəssüratları idarə edə bilmir və demək olar ki, həmişə ona hakim kəsilən hisslərin əsiri olur. Bütün uşaqlar fərdi xüsusiyyətlərə malikdir, onların təcrübələri isə dünyanın, ətraf aləmin dərkini şərtləndirir. Yaşlılarla müqayisədə, uşaqlarda emosiyaların xarici təzahürü daha qızğın, sadəlövh və səmimi səciyyə daşıyır. Uşağın hissləri tez və parlaq şəkildə coşur, elə həmin sürətlə də sönür: bir çox hallarda hədsiz sevinci göz yaşları ilə əvəzlənir. Uşağın təəssüratlarının ən güclü və mühüm mənbəyi onun başqa adamlarla – yaşlılar və uşaqlarla münasibətləridir. Ətrafdakılar uşağa qarşı mehriban olduqda, onun hüquqlarını qoruduqda, ona qarşı diqqət və qayğı göstərdikdə uşaq emosional rahatlıq – əminlik və arxayınlıq hissi keçirir. Adətən, belə şəraitdə uşaq gümrah və şən əhvali-ruhiyyədə olur. Emosional rahatlıq uşağın şəxsiyyətinin normal inkişafına, onda müsbət keyfiyyətlərin, başqa adamlara qarşı xeyirxah münasibətin formalaşmasına dəstək olur. Ətrafdakıların uşağa münasibətdə davranışı onda daim müxtəlif hisslər – sevinc, kədər, inciklik və s. doğurur. Uşaq həm nəvaziş və tərifi, həm də özünə qarşı sərtliyi, haqsızlığı çox həssaslıqla qarşılayır. Məktəbəqədər yaşlı uşaqlar yaxınlarına, ilk növbədə, valideynlərinə, qardaş və bacılarına qarşı məhəbbət və mehribanlıq hiss edir, çox vaxt onlara münasibətdə qayğı, nəvaziş göstərirlər.

Məktəbəqədər yaşlı uşaqlarda "Sosial oyunlar və rol oynama" çox mühüm bir tədris vasitəsidir. Bu fəaliyyətlər uşaqların emosional və sosial bacarıqlarını təkmilləşdirməklə yanaşı, onların təxəyyülünü, nitqini və empatiya hissini inkişaf etdirir. Sosial oyunlar və rol oynama vasitəsilə uşaqlar müxtəlif vəziyyətləri təcrübədən keçirərək həyat bacarıqları qazanır və başqalarının duyğu və hisslərini daha yaxşı anlamağa başlayırlar.

**Sosial oyunlar və onların faydaları:** Sosial oyunlar zamanı uşaqlar həmyaşıdları ilə qarşılıqlı əlaqəyə girir, paylaşma, gözləmə və əməkdaşlıq kimi bacarıqları öyrənir. Sosial oyunlar uşaqların sosial bacarıqlarını (uşaqlar oyun vasitəsi ilə sosial qaydaları öyrənir, öz davranışlarını başqalarına uyğunlaşdırmağı və birgə fəaliyyətə qatılmağı), problemlərin həlli bacarığını (oyunlar zamanı ortaya çıxan münaqişələrin həll edilməsi bacarığı inkişaf edir), emosional bacarıqlarını təkmilləşdirməyi (sosial oyunlar uşaqlara müxtəlif duyğuları yaşama və ifadə etmə imkanları verir. Bu onların öz emosiyalarını tanıması və başqalarının hisslərini anlamasına kömək edir ) inkişaf etdirir [2, s. 15-22].

**Rol oynama və onun inkişaf etmə üstünlükləri:** Rol oynama (rollu oyunlar), uşaqlara fərqli rolları və vəziyyətləri canlandırmağa imkan verir, bu da onların təsəvvürünü genişləndirir və empatiya hissini gücləndirir. Rollu oyunlar zamanı uşaqlar hər hansı bir obrazın həyatına "girmək" və onların hisslərini yaşamaq imkanı qazanır. **Rol oynamaq (rollu oyunlar)** *empati hissini gücləndirir* (uşaqlar rol oynayarkən başqalarının baxış bucağını və hisslərini başa düşməyə çalışırlar. Məsələn, bir həkim rolunu oynayan uşaq xəstələrin vəziyyətini başa düşməyə cəhd edir), *nitq bacarıqlarını inkişaf etdirir* (uşaqlar rolları canlandırarkən daha çox ünsiyyət qurur və dil bacarıqlarını inkişaf etdirilər. Məsələn, satıcı və alıcı oyununda dialoq qurma qabiliyyətləri artır), *özünü ifadə etmə və inamın artmasını təşkil edir* (rol oynama uşaqların özlərini ifadə etmə bacarığını gücləndirir və inamlarını artırır. Uşaqlar müxtəlif rollarda fərqli cəhətlərini üzə çıxara bilirlər), *qaydaları anlama və hörmət etmə baş verir* (rollu oyun zamanı uşaqlar müəyyən qaydalar çərçivəsində oynamağı öyrənir, bu da gələcəkdə məktəb və ictimai həyatdakı davranış qaydalarını anlamalarına kömək edir).

**Sosial oyunlar və rol oynama üçün fəaliyyət nümunələri** [5, s. 55].

Müəllimlər və valideynlər aşağıdakı oyun və rol fəaliyyətlərini təşkil edə bilərlər:

- Mağaza oyunu: Uşaqlar alıcı və satıcı rollarında fəaliyyət göstərir, ünsiyyət qurur və əməkdaşlıq edir.
- Doktor oyunu: Bir uşaq həkim olur, digərləri isə xəstələr rolunda olur. Bu, uşaqlara qayğı göstərmə və başqalarına kömək etməyi öyrədir.
- Ailə oyunu: Uşaqlar ailə üzvlərini canlandırır, bu da onların ailə daxilindəki rolları və məsuliyyətləri anlamalarına kömək edir.

Bu fəaliyyətlər uşaqlarda sosial, emosional və intelektual inkişafı stimullaşdırır və onları həyatın müxtəlif vəziyyətlərinə hazırlayır.

Məktəbəqədər yaşlı uşaqlar üçün ***duyğuları tanıma və ifadə etmə*** bacarıqlarını inkişaf etdirmək emosional və sosial inkişaf üçün əsasdır [6, s. 25-34, 50-60]. Bu bacarıq uşaqların özlərini daha yaxşı ifadə etmələrinə, başqalarının duyğularını anlamağa və münasibətlərini sağlam şəkildə qurmağa kömək edir. Uşaqlar duyğularını başa düşdükdə və onları ifadə edə bildikdə, emosional sabitliyi daha yaxşı qoruyur və münaqişələri daha rahat həll edirlər.

Duyğuları tanıma və ifadə etmə önəmi aşağıdakı kimidir:

**1.** Özünü dərk etmə – Uşaqlar öz emosiyalarını tanıdıqca özlərini daha yaxşı dərk edir və hisslərinə nəzarət edə bilirlər. Bu onların emosional dayanıqlığını artırır.

**2.** Başqalarını anlama və empatiya – Başqalarının duyğularını dərk etmək və onları başa düşmək empatiyanın inkişafı üçün vacibdir [4]. Bu, uşaqların sosial bacarıqlarını təkmilləşdirir və münaqişələri sülh yolu ilə həll etmələrinə kömək edir.

**3.** Sağlam ünsiyyət qurma – duyğularını aydın şəkildə ifadə edən uşaqlar ünsiyyətdə daha açıq və dürüst olur, bu da onların qarşılıqlı əlaqələrini gücləndirir.

**Məktəbəqədər yaşda duyğuları tanıtma yolları**

Uşaqlara duyğuları tanıtmaq və onları ifadə etməyi öyrətmək üçün aşağıdakı üsullardan istifadə etmək faydalıdır:

1. Duyğu kartları və şəkillər

- Müxtəlif duyğuları ifadə edən şəkillərdən və kartlardan istifadə edərək uşaqlara sevinc, kədər, qorxu, qəzəb və digər əsas duyğuları tanıtmaq olar.

- Hər kart və ya şəkil haqqında danışmaq, uşaqların bu duyğuların nə olduğunu və onları necə ifadə etməyi öyrənmələrinə kömək edir.

2. Hekayələr və kitablar

- Müxtəlif duyğuları ifadə edən hekayələr və nağıllar oxumaq uşaqlara başqalarının yaşadığı duyğuları dərk etməyə kömək edir.
- Oxunan hekayələrdə personajların nəyə görə belə hiss etdikləri haqqında uşaqlarla müzakirə aparmaq faydalıdır.

3. Güzgü məşqləri

- Uşaqlara öz üz ifadələrinə baxaraq duyğularını tanımaq üçün güzgüdən istifadə etdirmək effektiv bir üsuludur. Uşaqlar üz ifadələrini güzgüdə görərək özlərini daha yaxşı dərk edirlər.

4. Rol oynama və dram məşqləri

- Müxtəlif duyğuları canlandırmaq üçün rol oynama məşqlərindən istifadə edə bilərsiniz. Məsələn, "bir az kədərlənmiş bir uşaq" və ya "çox sevinən bir uşaq" rolunu oynayaraq duyğuları dramatik şəkildə yaşaya bilərlər.

5. Duyğuları sözlərlə ifadə etmə

- Uşaqlara "Mən kədərləndim", "Mən xoşbəxtəm" kimi ifadələrdən istifadə edərək duyğularını sözlərlə bildirməyi öyrətmək onlara hisslərini açıq şəkildə ifadə etməyə kömək edir.
- Hər bir duyğunun adını öyrədərək və uşaqların gündəlik həyatda özlərini necə hiss etdiklərini paylaşmaqlarına təşviq etməklə bu bacarıq inkişaf etdirilə bilər.

**Duyğuları tanıma və ifadə etmək üçün fəaliyyətlər:**

- Hissləri rəngləmək: Uşaqlara fərqli rəngləri müəyyən duyğularla əlaqələndirməyi öyrətmək, məsələn, "qırmızı" qəzəbi, "mavi" kədəri ifadə edə bilər.
- Duyğu günlüyü: Uşaqlara hər gün özlərini necə hiss etdiklərini təsvir etmək üçün sadə rəsmlər və ya sözlər vasitəsilə duyğu günlüyü tutmağa təşviq edilə bilər.
- Duyğu maşını: Uşaqlar hər bir duyğunun simvolik üz ifadəsi ilə canlandırıldığı "duyğu maşını" oyununda iştirak etmək əyləncəli və öyrədici ola bilər.

Duyğuları tanımaq və ifadə etmək uşaqlara yalnız özlərini anlamaq üçün deyil, həm də başqaları ilə daha sağlam münasibətlər qurmaq üçün lazım olan əsas bacarıqları qazandırır. Bu bacarıqları inkişaf etdirmək uşaqların məktəbə, sosial çevrəyə və gələcəkdəki münasibətlərə hazırlıq səviyyəsini artırır.

Məktəbəqədər yaşlı uşaqlarda empatiya bacarıqlarının inkişafı onların sosial əlaqələrini möhkəmləndirmək və sağlam emosional inkişaf təmin etmək üçün çox önəmlidir. Empatiya uşaqların başqalarının hisslərini anlamaq, onlara qayğı göstərmək və müsbət sosial davranışlar göstərmək bacarığıdır. Bu bacarıq uşaqların həmyaşıdları ilə əlaqə qurmasına və sağlam münasibətlər inkişaf etdirməsinə kömək edir. Empatiya bacarığı olan uşaqlar başqalarının hisslərini anlamada və düzgün reaksiya vermədə daha müvəffəqiyyətli olurlar. Bu onların sosial həyatında bir çox müsbət nəticələrə səbəb olur:

1. Sağlam münasibətlərin qurulması – Empatiya bacarığı olan uşaqlar dostları və ailə üzvləri ilə sağlam münasibətlər qurmaqda daha uğurlu olurlar, çünki başqalarının hisslərinə həssaslıqla yanaşırlar [4].
2. Münaqişələrin sülh yolu ilə həlli – Empatiya uşaqların münaqişələr zamanı başqalarının hisslərini başa düşməsinə kömək edir və problemləri dinc şəkildə həll etməyi öyrədir.
3. Duyğusal sabitlik və inam – Empatiya uşaqlara özlərini başqalarının yerinə qoymağı və başqalarına qarşı həssas olmağı öyrətdiyi üçün onların emosional sabitliyini artırır və sosial cəsarət qazandırır.

Məktəbəqədər yaşlı uşaqlarda empatiya bacarıqlarını inkişafı etdirmək üsullarına hekayələrdən və nağıllardan istifadə, rol oynama və dramatik oyunlar daxildir.

**Məktəbəqədər yaşlı uşaqlarda problem həlletmə bacarıqlarını inkişaf etdirmək** onların müstəqil düşüncə və qərar vermə qabiliyyətlərini gücləndirir. Bu bacarıqlar uşaqların

gündəlik həyatda qarşılaşdıqları çətinlikləri həll etmələrinə, özünə inamlı olmalarına və daha kreativ yanaşmalar nümayiş etdirmələrinə kömək edir. Problem həlletmə bacarıqları həm də uşaqların gələcəkdə məktəb və sosial həyatda daha uğurlu olmalarına şərait yaradır. Problemi həlletmə bacarıqlarının inkişafı özünə inamı artırır, tənqidi və məntiqi düşüncə bacarıqları formalaşdırır, emosional sabitlik və səbr öyrədir.

**Məktəbəqədər yaşlı uşaqlarda problem həlletmə bacarıqlarını inkişaf etdirmək üsulları:**

**1.** Sadə problemləri həll etmək üçün tapşırıqlar

- Uşaqlar üçün sadə problemlər qoymaq, məsələn, "Oyuncağını tapmaq üçün nə edə bilərsən?" və "Dostunun oyuncağını geri qaytarmırsa, nə edərsən?" kimi vəziyyətlər yaratmaq onların problem həlletmə yollarını düşünmələrinə kömək edir.

**2.** "Sən nə fikirləşirsən?" sualları ilə düşünməyə təşviq etmək

- Uşaqlara "Səncə bunu necə həll edə bilərsən?", "Başqa hansı yollarla bu problemi həll edə bilərik?" kimi suallar vermək, onların yaradıcı düşüncə tərzini inkişaf etdirmək və onları fərqli həll yolları axtarmağa təşviq edir.

**3.** İnteraktiv oyunlar və tapmacalar

- Problem həlletmə bacarıqlarını inkişaf etdirmək üçün interaktiv oyunlar və tapmacalar çox faydalıdır. Məsələn, qutu içində gizlədilmiş bir əşyanı tapmaq və ya fərqli formalı parçaları birləşdirərək şəkil yaratmaq kimi oyunlar uşaqların tənqidi düşüncəsini gücləndirir.

**4.** Qrup fəaliyyətləri və komanda işləri

- Komanda ilə problemləri həll etmək uşaqlara birlikdə çalışmağı, paylaşmağı və başqalarının fikirlərinə hörmət etməyi öyrədir. Məsələn, bir tapşırıq üçün qrupda çalışma, uşaqlara həm də başqalarının perspektivindən düşünməyi aşılayır.

**5.** Rol oynama və ssenari canlandırmaları

- Problemli vəziyyətlərin canlandırılması, məsələn, dostu ilə oyuncağını paylaşmaqdan imtina edən bir uşaq rolu oynama, uşaqlara bu cür vəziyyətlərdə necə davranmalı olduqlarını öyrədir.
- Müxtəlif rollar vasitəsilə uşaqlar müxtəlif həll yollarını təcrübədən keçirə bilirlər.

**6.** Səbr və davamlılıq öyrətmək

- Uşaqlara problemləri həll edərkən tələsməməyi və səbirli olmağı öyrətmək vacibdir. Bəzən problem həll etmək vaxt və səbir tələb edir, bu da uşaqlara təslim olmamağın əhəmiyyətini dərk etdirir.

Bütün bunları ümumiləşdirsək deyə bilərik ki, sosial-emosional inkişaf uşaqların müxtəlif fəaliyyətlərini: oyun, tədqiqat, idrak, aktiv qarşılıqlı əlaqə və müxtəlif ideyaların, münasibətlərin birləşməsinin baş verdiyi, uşağın sosial və fərdi oriyentasiyasının davranışının formalaşdığı sosial-fərdi təcrübəni əhatə edir.

**İşin elmi nəticəsi:** Məqalədən alınan elmi nəticə ondan ibarətdir ki, həm sosial, həm də emosional inkişaf ifadəsi birgə daha geniş anlam kəsb edir. Belə ki, sosial inkişaf uşağın yaxınları, başqa uşaq və böyüklərlə ünsiyyət yaratmaq, əməkdaşlıq etmək, birgə fəaliyyət göstərmək bacarığı, sosial normaları mənimsəməsidir. Emosional inkişaf dedikdə isə uşağın başqalarının hisslərini başa düşməsi, öz hisslərini düzgün ifadə etməsi və hisslərini tənzimləməsi anlaşılır.

**İşin elmi yeniliyi:** Məqalədə sosial-emosional inkişafı dəstəkləyən və onun təşkili ilə bağlı mövcud olan elmi nəzəriyyələr və yanaşmalar təhlilə cəlb edilir.

**İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi:** Məqalədə məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafına nələrin təsir etdiyini, nələrin faydalı olduğunu fəaliyyət nümunələri ilə göstərməklə tərbiyəçi-müəllimlərin, həmçinin valideynlərin faydalanması tövsiyə edilir.

## Ədəbiyyat


1. Denham, S.A. Emotional Development in Young Children / S.A.Denham. – New York: Guilford Press, – 1998. – 72 p.
2. Əliyeva, Ş. Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi / Ş.Əliyeva, X.Həmidova, S.Mustafayeva. – Bakı, – 2020. – 300 s.
3. https://narinc.az/article/mektebeqeder-yasli-usaqlarin-sosial-inkisafi
4. https://az.wikipedia.org/wiki/Empatiya
5. İlyasova, V.İ. Məktəbəqədər təhsil müəssisələrində müxtəlif növ fəaliyyət vasitəsilə uşaqların sosial-kommunikativ inkişafı / V.İ.İlyasova. – Çelyabinski, – 2017.
6. Thompson, R.A. Emotion Regulation: A Theme in Search of efinition. // In N. A. Fox (Ed.) The Development of Emotion Regulation: Biological and Behavioral Considerations. – 1994.


**N.Ch.Heydarova**

**Nature of Social-Emotional Development of Pre-School Children,
Goals and Ways of Successful Implementation of Tasks**

***Summary***

The socio-emotional development of preschool children involves acquiring knowledge, skills and habits about social-emotional development, educating children about important values such as communication, behavior, and being polite, instilling in children the formation of skills intended for the field of social-emotional development, giving children social-emotional development. It is based on understanding the negative situations that arise in development and ways to eliminate them.

***Key words**: preschool children, social-emotional, empathy, role playing games, emotions*

**Н.Ч.Гейдарова**

**Характер социально-эмоционального развития детей-дошкольников, цели и пути
успешной реализации задач**

***Резюме***

Социально-эмоциональное развитие детей дошкольного возраста предполагает приобретение знаний, умений и привычек детей в области социально-эмоционального развития, воспитание у детей таких важных ценностей, как общение, поведение и вежливость, формирование навыков, предназначенных для данной области. Для социально-эмоционального развития детей, формирования у них социально-эмоциональных навыков важно понимать негативные ситуации, возникающие в развитии, и способы их устранения.

***Ключевые слова:** дети дошкольного возраста, социально-эмоциональный, эмпатия, ролевые игры, эмоции*

*Rəyçi: ped.ü.f.d., b/m. N.R.İsmayılova*

*Redaksiyaya daxil olub: 13.11.2024*